Tarix və onun problemləri, №2 2013

**BAYRAM ALLAHVERDIYEV**
*Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabşünaslıq və nəşriyyat işi kafedrasının professoru, tarix elmləri doktoru*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KİTAB NƏŞRİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** Azərbaycan, Heydər Əliyev, kitab, nəşr, elm, təhsil, bilik, mədəniyyət, maarif
***Ключевые слова:*** Азербайджан, Гейдар Алиев, книги, публикации, наука, образование, знания, культура, образование
***Key words:*** Azerbaijan, Heydar Aliyev, books, publications, research, education, knowledge, culture, education

Ümummilli liderimiz Heydər Əliyevin çoxşaxəli fəaliyyəti içərisində mədəniyyət və incəsənətin inkişafı maarifin, təhsilin dünya səviyyəsinə qaldırılması xüsusi yer tutur. Bu sistemdə kitabçılıq işi, kitab nəşri mədəniyyəti və onun inkişafı böyük əhəmiyyət kəsb edir. Belə ki, ümummilli liderimiz Heydər Əliyevin dərsliklərin nəşri üçün vəsaitlərin ayrılmasına da xüsusi diqqət yetirmişdir. Respublika Nazirlər Kabinetinin 25 avqust 1994-cü il "Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərlə təminatı məsələləri haqqında" 318 saylı qərarı 1995-1996-cı dərs ilindən ibtidai siniflərə dərsliklərin pulsuz verilməsini, həmçinin V-XI sinif dərsliklərinin yalnız yerli təhsil şöbələrinin xəttilə məktəblərdə satışının keçirilməsini məqsədəuyğun hesab etdi [1].

Görkəmli şəxsiyyətlərin tanınmış ziyalıların, incəsənət xadimlərinin, görkəmli şair və yazıçıların yubileylərinin qeyd edilməsində Heydər Əliyevin çıxışı ədəbiyyat və incəsənətin, kitab və kitabçılıq işinin inkişafına istiqamət vermişdir. Ümummilli liderimiz Heydər Əliyevin hələ, 1995-ci ildə Azərbaycan Respublikasının Milli kitabxanasında miniatür kitabın təqdimat sərgisində çıxışı müstəqillik şəraitində respublikamızda kitabçılıq işinin inkişafının proqramı idi.

Heydər Əliyev həmin çıxışında demişdir: "Bugünkü hadisə çox əlamətdardır. Burada Azərbaycanın miniatür kitablarının sərgisi keçirilir. Zənnimcə, biz Azərbaycanda belə bir sərginin ilk dəfə şahidi oluruq. Azərbaycanda kitab çapının tarixi böyükdür. Yaxın keçmişdə Azərbaycan Respublikası onun 400 illiyini qeyd etmişdir. Keçmiş dövrlərdə məzmuna və formasına görə müxtəlif, çox maraqlı, nəfis kitablar buraxılmışdır. Bu nəşrlər dünyanın bir çox ölkələrində də Azərbaycanı təmsil edir, onun haqqında biliklər verir. Ancaq Azərbaycanda miniatür kitab nəşrinin tarixi qısadır. Mən çox məmnunam ki, bu gün biz Azərbaycanda yazıçılarımızın, şairlərimizin və ictimai-siyasi xadimlərimizin kitablarının miniatür nəşrini də görürük. Şübhəsiz ki, bu, mədəniyyətimiz, kitab nəşrimiz üçün çox əlamətdar hadisə, böyük nailiyyətdir. Bununla əlaqədar mən sərginin təşkilatçılarını, Azərbaycan Respublikasının "Kitab" Cəmiyyətini, buraya toplaşanları təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, bu iş, təşəbbüs gələcəkdə də davam etdiriləcəkdir. Burada mənim Azərbaycan Prezidenti vəzifəsinə başlayarkən andiçmə mərasimində nitqimin də miniatür nəşri nümayiş etdirilir. Bu gün həmin kitabı mənə təqdim edirlər. Mən buna çox məmnunam" [1].

Heydər Əliyevdən gətirilən bu sitatda kitabçılıq işinin bir çox problemləri, tarixi, elmi, nəşri və inkişafı məsələləri meydana çıxarılır. Görkəmli liderimiz Heydər Əliyevin bu sitatından məlum olur ki, dahi şəxsiyyət Azərbaycan kitab çapının qədim tarixə malik olduğunu,

müxtəlif məzmunlu, müxtəlif formalı kitabların yarandığını və bu kitab məhsulu içərisində miniatür kitabın müəyyən yer tutduğunu və inkişafının zəruri olduğunu qeyd edir.

Heydər Əliyevin bu çıxışından kitab nəşri ilə məşğul olan naşirlərimiz, müxtəlif növlü və tipli kitabların nəşrinə, o cümlədən miniatür kitabların buraxılmasına diqqət yetirmələri nəticədə kitabçılıq işinin ümumi inkişafına müsbət təsir göstərmişdir. Bunu respublikamızda kitab nəşri sahəsində əldə edilən nailiyyətlər də təsdiq edir.

H.Əliyev buradakı çıxışında kitabçılıq işinin bir çox digər problemlərini də dərindən bilən görkəmli kitabşünas alim kimi irəli sürür və xüsusilə, kitabın cəmiyyətdə yerinə yetirdiyi funksiyaları çox gözəl şərh edir: "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi-ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrindən biri sayıram" [2].

Göründüyü kimi, dahi şəxsiyyət kitabın insan və cəmiyyətin həyatındakı rolunu əsaslandırmış, onun təhsil elm və digər fəaliyyət sahələrində, bütövlükdə, şəxsiyyətin formalaşmasındakı rolunu elmi və təcrübi cəhətdən əsaslandırmışdır. Kitabın cəmiyyətdəki bu rolunu nəzərə alan Heydər Əliyev onun daim inkişaf etdirilməsini ölkəmiz üçün çox böyük əhəmiyyətə malik olduğunu irəli sürür və beləliklə də, kitabçılıq işinin inkişaf etdirilməsi proqramını verir: "Doğrudur, indiki ağır iqtisadi böhran dövründə respublikamızın iqtisadiyyatında yaranmış çətinliklərlə əlaqədar və başqa ölkələrlə əlaqələrimizin məhdudlaşdığı bir vaxt da nəşriyyat işi də çox çətinliklərlə qarşılaşır. Bu, təbiidir. Ancaq biz bu çətinliklərin qarşısını almalıyıq. Bunun üçün yeni-yeni yollar axtarmalıyıq. Həyatımız dəyişir, hər bir şey dəyişir. Biz bu dəyişikliklər prosesinin içindəyik. Keçmişdə nəşriyyat işi dövlətin əlində idi, onun tərəfindən maliyyələşdirilirdi və bunun sayəsində Azərbaycanda həmin sahə çox genişlənmişdi. İndi dövlətin imkanları məhdudlaşdığı, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getdiyimiz bir vaxtda, özəl bölməyə geniş imkanlar yaratmağa çalışmağımız və Azərbaycanda, kiçik də olsa, özəl bölmənin meydana çıxdığı bir vaxtda biz onun bütün imkanlarını nəşriyyat işinin canlandırılmasına, inkişaf etdirilməsinə, xüsusən kitab nəşrinin genişlənməsinə cəlb etməli, yönəltməliyik" [2].

Çox maraqlıdır ki, H.Əliyev kitabçılıq işində dünya təcrübəsinin istifadə olunmasının zəruriliyini də irəli sürür. Bu mənada H.Əliyevin aşağıdakı fikri diqqəti cəlb edir: "Bu sahədə başqa ölkələrdə, xüsusən Rusiyada yaxşı təcrübə var. Məsələn, Rusiyada bəzi firmalar, şirkətlər uşaqlar, gənclər üçün, ümumiyyətlə, cəmiyyət üçün, o cümlədən məktəblilər üçün lazım olan kitabların nəşrini öz üzərinə götürür, bu işə sponsorluq edirlər. Mən bir neçə nümunə ilə tanış oldum və deyə bilərəm ki, keçmişdəkindən də yaxşı kitablar buraxılır.

İndi respublikamızda xeyriyyəçilik fəaliyyəti genişlənir. Arzu edirəm ki, bizim iş adamları, imkanlı sahibkarlar bütün sahələrdə xeyriyyəçilik fəaliyyətləri göstərdikləri kimi, bu işdə - kitabların yazılması və nəşri sahəsində də köməkliklərini əsirgəməsinlər. Zənnimcə bu, xeyriyyəçilik sahəsində ən yaxşı iş ola bilər. Mən iş adamlarını buna dəvət edirəm" [2].

Heydər Əliyev kitab nəşrində özəl sektorun rolunu, sponsorların xidmətini qeyd etməklə yanaşı, dövlətin də kitab nəşrində yerini aydınlaşdırmağa çalışır. O, qeyd edir ki, "şübhəsiz ki, dövlətin də imkanlarından daha səmərəli istifadə olunmalıdır. Ancaq, bayaq dediyim kimi indi biz mülkiyyət formasını dəyişdiririk. Bazar iqtisadiyyatı yolu ilə gedirik. Özəl bölməyə geniş imkanlar yaradırıq və bundan sonra da yaradacağıq. Ona görə də bunların hamısı ümum-

Tarix və onun problemləri, №2 2013

milli əhəmiyyət kəsb edən kitab nəşrinə səfərbər edilməli, cəlb olunmalıdır. Ümidvaram ki, belə də olacaqdır" [2].

Heydər Əliyev müəllif, kitab nəşri, oxucu münasibətlərinə xüsusi diqqət yetirir və bu sintezin kitabçılıq işində çox böyük əhəmiyyət kəsb etdiyini qeyd edir, kitab nəşrinin perspektivini müəyyənləşdirir. Dahi şəxsiyyətin fikir və mülahizələri Azərbaycan kitab nəşri mədəniyyətini zənginləşdirir və inkişaf etdirir. Bu cəhətdən Heydər Əliyevin aşağıdakı fikri diqqəti cəlb edir:

"Yazıçı və şairlərimiz, alimlərimiz, mədəniyyət xadimlərimiz böyük potensiala malikdirlər. Onların indiyədək yazdıqları əsərlər Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında öz rolunu oynamışdır. Ancaq xalqımız Azərbaycanın elmi, mədəni potensialından, ümumiyyətlə, intellektual potensialından bundan sonra daha çox bəhrələnməlidir. Ona görə də çalışmalıyıq ki, belə yaradıcı adamlar öz fəaliyyətlərini davam etdirsinlər. Onlara kömək etməliyik, şərait yaratmalıyıq.

Eyni zamanda yazılan kitabların nəşr olunmasının qayğısına qalmalıyıq. Bilirəm ki, yazanlar və yazmaq istəyənlər çoxdur. Bu adamlar – alimlər, yazıçılar, mədəniyyət xadimləri yazdıqlarının bir çoxunu çap etdirə bilmirlər. Bu çətinliyi hamımız dərk etməliyik. Ancaq bununla kifayətlənmək olmaz. Hər bir çətinlikdən çıxış yolu tapmalıyıq, özü də bunu birlikdə axtarmalıyıq. Dövlət də bütün imkanlarından istifadə edəcəkdir. Ancaq ayrı-ayrı cəmiyyətlər, təşkilatlar, iş adamlarımız da bu işə qoşulmalıdırlar. Arzu edərdim ki, bu tövsiyələrin əməli nəticələri olsun" [3].

Müasir dünyada kitab nəşri genişlənir. Çünki problemlər, mövzular artır, onlar dünya ölkələrində, o cümlədən Azərbaycanda yeni əsərlərin, kitabların meydana gəlməsinə, nəşr edilib yayılmasına səbəb olur. Bu kitablar, yeni nəşrlər, oxuculara yeni biliklər, yeni məlumatlar verir və çatdırır. Təsadüfi deyildir ki, dünya ölkələrində, o cümlədən Azərbaycanda redaksiya-nəşriyyat prosesinin genişlənməsi, nəşriyyat fəaliyyətinin güclənməsi, özəl nəşriyyatların yaranması və inkişaf etdirilməsi, dövrün, şəraitin qarşıya qoyduğu aktual problemlər, tələblərdir. Bu prosesi nəzərə alan respublikamızın və türk dünyasının ümummilli lideri Heydər Əliyev öz fəaliyyətində kitabçılıq işinin inkişaf etdirilməsini gördüyü, həyata keçirdiyi əməli işlər də sübut edir.

Bu mənada respublikanın keçmiş prezidenti Heydər Əliyevin aşağıdakı sərəncamı diqqətəlayiqdir.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin tabeçiliyində olan bir sıra müəssisələrin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında deyilir: "İqtsadiyyatın liberallaşdırılması, sahibkarlığın genişləndirilməsi və investisiyaların cəlb olunması yolu ilə iqtisadiyyatın daha sürətlə inkişafına nail olmaq və onun səmərəliliyinin artırılmasını təmin etmək məqsədi ilə və "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin tabeliyində olan aşağıdakı müəssisələr özəlləşdirməyə açıq elan edilsinlər:

- "İşıq" nəşriyyatı;
- "Şərq-Qərb" nəşriyyatı;
- "Yazıçı" nəşriyyatı;
- İstehsalat, təchizat və satış idarəsi;
- Sumqayıt icra mətbəəsi;
- Lənkəran mətbəəsi;

- Bərdə rayon poliqrafiya mətbəəsi;
- Yevlax rayon icra mətbəəsi;
- Mingəçevir poliqrafiya mətbəəsi;
- Şəki icra mətbəəsi və s.

2. Azərbaycan Respublikasının Dövlət Əmlakı Nazirliyi bu sərəncamın 1-ci bəndində göstərilən müəssisələrin qanunvericilikdə nəzərdə tutulmuş qayda ilə özəlləşdirilməsini təmin etsin.

3. Özəlləşdirməyə açıq elan olunmuş müəssisələrin rəhbərlərinə tapşırılsın ki, həmin müəssisələr özəlləşdirilənədək onların idarə olunmasına və əmlakın qorunub saxlanılmasına şəxsən məsuliyyət daşıyırlar" [4].

Heydər Əliyevin bu cür sərəncamları sonrakı illərdə də qəbul edilmiş və həmin sərəncamlar kitabçılıq işinin inkişafına, kitab nəşrinin genişlənməsinə, özəl nəşriyyatlaarın sürətlə inkişaf etməsinə təkan vermişdir. Çünki müstəqillik dövründə nəşriyyatların yenidən qurulması, nəşriyyat və poliqrafiya müəssisələrinin özəlləşdirilməsi, kitabın nəşri, təbliği və yayılmasına köməklik edən bir sıra qanunların – "Kitabxana işi haqqında" (25 dekabr 1998-ci il); "Nəşriyyat işi haqqında" (30 may, 2000-ci il) və s. qəbul edilməsi və nəticədə nəşriyyat işində müəyyən nailiyyətlərin əldə edilməsinə imkan vermişdir. Doğrudur, H.Əliyevin ilk dəfə hakimiyyətə gəlməsi dövründə də, yəni 1970-1980-ci illərdə də kitabçılıq işi xeyli inkişaf etmişdir. Belə ki, XX əsrin 70-80-ci illərində hər il ölkəmizdə müxtəlif elm və bilik sahələri üzrə 1300-1400 adda 13-14 milyon nüsxədən çox kitab və kitabça nəşr edilirdi [5, 180].

Onu da qeyd etməliyik ki, totalitar sovet ideologiyası və rejimi olmasaydı respublikamızda kitab nəşri sahəsində daha böyük müvəffəqiyyətlər əldə etmək olardı. Müstəqillik dövründə hakimiyyətə ikinci dəfə qayıdan H.Əliyevin fəaliyyəti nəticəsində xalq təsərrüfatının, elmin, mədəniyyətin, təhsilin, o cümlədən kitabçılıq işinin inkişafında böyük nailiyyətlər əldə edildi.

H.Əliyevin hərtərəfli və uzaqgörən siyasəti nəticəsində kitab nəşri, nəşriyyatların fəaliyyətləri, yəni dövlət, özəl nəşriyyatların fəaliyyətinin genişlənməsi (indi onların sayı 150-dən çoxdur) kitabçılıq işinin ümumi inkişafında, xüsusilə kitab nəşrində (ad, tiraj və həcmində) böyük irəliləyişə gətirib çıxartdı. Belə ki, 2005-2006-cı illərdə respublikamızda bütün elm və bilik sahələrinə dair 1400-1500 addan çox kitab və kitabça, 10 milyon nüsxəyə qədər tirajla çapdan buraxıldı. Kitabın nəşrində ad etibarilə artım diqqətəlayiqdir. Lakin respublikamızda tiraj siyasəti olmadığına görə artım nəzərə çarpmır. Belə ki, keçmiş sovet hakimiyyətinin 70-80-ci illərindəki kitab tirajı ilə müqayisədə indi illik kitabın tirajı 3-4 dəfədən çox azalmışdır [5, 180].

Amma, araşdırmalar göstərir ki, 2006-2008-ci illərdə kitabın ad və tiraj etibarilə inkişafı sürətlənmişdir. İndi hər il ölkəmizdə təxminən 2000-2500 addan çox kitab və kitabça, 10 milyon nüsxədən çox ümumi tirajla çapdan buraxılır.

Heydər Əliyev çox haqlı olaraq qeyd edirdi ki, "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır". Heydər Əliyevin bu məşhur kəlamı tarix ədəbiyyatına, xüsusən vətən tarixinə, milli ədəbiyyat tarixinə elmimizin, ədəbiyyatımızın qiymətli tarixi abidələrinə diqqət yetirməyi və bu istiqamətdə kitab nəşrinin həyata keçirilməsini zəruri hesab edirdi.

Ulu öndər Heydər Əliyevi Azərbaycan xalqının, türk dünyasının, bütövlükdə, çağdaş sivilizasiyanın ən böyük şəxsiyyətlərindən biri adlandıranlar tamamilə haqlıdırlar. Ensiklopedik biliyə, güclü iradəyə və milli ruha, dərin fəlsəfi düşüncə tərzinə və möhkəm tarixi yaddaşa

Tarix və onun problemləri, №2 2013

malik olan bu böyük şəxsiyyətin bütün fəaliyyəti doğma xalqına və vətəninə sədaqətlə xidmətin parlaq nümunəsidir. Bu nümunəni "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasında Azərabycan prezidenti, Dövlət Komissiyasının sədri H.Əliyevin yekun nitqi təsdiq edir:

"Mən bu gün bunu bir daha demək istəyirəm ki, "Kitabi-Dədə Qorqud" dastanı indiyə qədər Azərbaycanda az bir təbəqəyə məlum olan abidədir, əsərdir. Bunu bilənlər bizim tarixçilərimizdi, - onların da hamısı yox, - o adamlar ki, "Dədə Qorqud"un tədqiqi ilə məşğul olublar. Bunu bilənlər bizim ədəbiyyatçılarımız, yazıçılarımızdır. Cəsarətlə demək olar ki, onların da bəlkə hamısı yox. Geniş kütləyə, xalqımıza, millətimizə gəldikdə isə onu demək olar ki, ötən 3 il müddətində (bu 3 il "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar yaradılan komissiyanın tarixini nəzərdə tutur. – B.V.Allahverdiyev) gördüyümüz işlər, apardığımız təhlillər və bu müzakirələrdə dinlədiyimiz fikirlər təsdiq edir ki, bizim geniş kütləmiz "Dədə Qorqud" haqqında çox az təsəvvürə malik idi, az şey bilirdi.

Biz indi bu 3 il müddətində buradakı məruzələr, çıxışlar bunu göstərdi – birincisi "Kitabi-Dədə Qorqud" dastanını xalqımıza yaxşı tanıtdıq, ikincisi dünyaya tanıtdıq, üçüncüsü tam təsdiq etdik ki, bu Azərbaycana məxsusdur. Bəli, bu türk xalqlarına məxsusdur, ancaq Azərbaycana məxsusdur. Onun vətəni Azərbaycandır və varisi, sahibi Azərbaycandır, yəni Azərbaycan xalqıdır. Biz gələcək işlər üçün böyük yol açdıq. Təsəvvür edin, bax qısa müddətdə burada nə qədər kitablar nəşr olunubdur. Amma bizim komissiyanın birinci iclasını yada salın. Nə var idi? Bunlar yox idi. O vaxt siz də deyirdiniz, indi burada çıxış edənlər də deyirlər ki, Həmid Araslı, Bartold bir şey yazıblar, nəşr etdiriblər, amma o da itib gedibdir. Dəmirçizadə də bir şey yazıbdır, o da yoxdur. Bizim bir neçə alimimiz – bəziləri burada iştirak edirlər – çox yazıblar, amma bunları nəşr etdirə bilməyiblər. Yazdıqları da özlərində qalıbdır. Ancaq görün indi qısa bir müddətdə nə qədər əsərlər yaranıbdır. Həqiqətən, bu, doğru sözdür ki, bütün bu tədbirlərin hər bir əhəmiyyətlidir. Amma ən əhəmiyyətlisi odur ki, əsərlər yaranır və bu əsərlər gələcək üçün, bizim tariximizin daha geniş dərin təhlil olunması üçün, gələcək nəsillər üçün böyük töhfədir".

Heydər Əliyev istənilən çıxışında, məruzəsində qarşıya qoyulan problemi, müəyyən sahəni, mövzunu o qədər dərindən bilirdi ki, dinləyici onu elə bil həmin sahənin, problemin mütəxəssisi kimi qəbul edirdi. Bunu kitab nəşrində də, kitabçılıq işinin bir çox problemləri ilə əlaqədar çıxışlarında görə bilirik. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin yekun nitqində də, bu mülahizəni aydın görürük. O, deyirdi:

"...Mən özüm də etiraf etməliyəm ki, "Dədə Qorqud"un bu qədər dərin dərya olduğunu təsəvvür edə bilmirdim. İndi kimsə desə ki, yox, o bilirmiş, - güman edirəm xəta edir, mən bilmirdim. Məsələn, mənim bu barədə biliklərim bu kitablardan – təkcə onların sayına görə yox, hər birinin məzmunu və mənasına görə - nə qədər artıbdır. Hesab edirəm, eləcə də hər bir Azərbaycan vətəndaşının biliyi artıbdır.

Kütləvi surətdə həyata keçirilən tədbirlər "Dədə Qorqud"u geniş kütlələrə tanıdır. Bu kitabların yazılması və keçmişdə yazılmış kitabların belə nəfis şəkildə yenidən nəşr olunması çox qiymətlidir. Mən dünən soruşdum ki, bunların tirajı nə qədərdir?– 1000-2000 nüsxədir? Bir il keçəndən sonra bu kitabları tapmaq yenə də mümkün olmayacaqdır. Təbiidir ki, indi biz hər bir kitabı bir neçə min nüsxədə nəfis şəkildə nəşr edə bilmərik. Biz bunları yubiley üçün yaratmışıq. Ancaq fikrim bundan ibarətdir ki, bu kitabların çoxunu, bəlkə də hamısını, yaxud bir qismini geniş kütlələr üçün böyük tirajlarla sadə şəkildə nəşr edək. Onları geniş kütlələrə

çatdırmaq üçün satışa buraxaq, kitabxanalara verək. İndi nəşr etdiyimiz bu əsərləri kitabxanalara versək, yerdə bir şey qalmayacaqdır. Çünki bunlar 1000-2000 nüsxədir...".

Heydər Əliyevin bu fikri, bu mülahizəsi kitabçılıq işi üçün çox əhəmiyyətlidir. Belə ki, Heydər Əliyev kitabın məzmununa çox yüksək qiymət verir. Bu yüksək qiymət kitabın məzmununun dəyəri, qiyməti oxucuya bilik verməsi ilə ölçülür. Buna görə də Heydər Əliyevin bu çıxışı əsas götürülərək müasir dövrdə də nəşriyyatlar istənilən dərin məzmunlu kitabların bilik və məlumat verən kitabların nəşr edilib yayılmasına xüsusi diqqət yetirməlidir. Yeri gəlmişkən onu da qeyd etməliyik ki, müasir dövrdə Azərbaycan Respublikasında fəaliyyət göstərən nəşriyyatlarda tiraj siyasəti demək olar ki, yoxdur və tiraj siyasətinin müəyyənləşdirilməsi üzrə mütəxəssis fikrinə etinasız münasibət göstərilir və hətta nəzərə alınmır. Halbuki, Heydər Əliyev zəruri, lazımlı, dəyərli kitabların tirajının yüksək olmasını vacib şərt kimi irəli sürür və bunun nəzərə alınmasını xüsusilə qeyd edir. Çünki tiraj siyasəti düzgün nəzərə alındıqda, düzgün müəyyənləşdirildikdə, kitablar kitabxanalara, oxuculara çatdırıla bilər.

Qeyd etdiyimiz kimi, dəyərli kitabların, yəni xalqın tarixindən, ədəbiyyat və incəsənətindən, etnoqrafiyasından bəhs edən kitabların böyük tirajlarla nəşr edilməsini, yayılmasını Heydər Əliyev kitabçılıq işinin qarşısında qoyulan ən mühüm vəzifələrdən hesab edir. Bu mənada H.Əliyevin aşağıdakı fikri xüsusilə diqqəti cəlb edir: "Ancaq geniş kütlənin "Kitabi-Dədə Qorqud" dastanı, abidəsi ilə bu gün və gələcəkdə dərindən tanış olması və onu dərindən bilməsi üçün – bunun əsas mənası ondan ibarətdir ki, öz kökünü, keçmişini, millətinin tarixini dərindən bilsin – biz bugünkü və gələcək nəsillərin bu kitablardan lazımi qədər istifadə etməsi imkanına malik olmalıyıq. Mən bu fikri dünən söyləmişəm, indi bir daha deyirəm. Mən görülən işləri çox yüksək qiymətləndirirəm. Ancaq bu, işin başlanğıcı olmalıdır. Bunun üçün biz vəsait də tapa bilərik. Doğrudur, indi bizim vəsaitimiz o qədər də çox deyildir. Amma biz buna qənaət etməliyik, bunları etməliyik. Çünki bunlar xalqımıza, gələcək üçün lazımdır".

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, H.Əliyevin hakimiyyəti dövründə respublikamızda tanınmış şairlərin, alimlərin, yazıçıların yubileylərinin təşkil edilməsi ənənə halını almışıdır. Məsələn, Məhəmməd Füzulinin, Nəsirəddin Tusinin, Nizami Gəncəvinin, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin və başqa görkəmli ədiblərin yubileylərinin keçirilməsi ilə əlaqədar Heydər Əliyevin xüsusi fərmanları, sərəncamları olmuşdur. Bu yubileylərin hər birində Heydər Əliyev çıxış etmiş və öz çıxışlarında onların əsərlərinin nəşrinə, yayılmasına xüsusi əhəmiyyət vermişdir. Bunun nəticəsidir ki, Azərbaycanda Heydər Əliyevin hakimiyyəti dövründə kitabların nəşri genişlənmiş, artmış, məzmunu və bədii tərtibatı xeyli dərəcədə yaxşılaşmışdır. O deyirdi: "Alimlərimiz, yazıçılarımız bu qısa müddətdə keçmiş kitablardan əlavə yeni əsərlər yazıblar. Bu, çox gözəl hadisədir. Düşünürəm ki, əgər bu yubiley haqqında fərman imzalanmasaydı, bu işlər görülməsəydi, bəlkə də müəlliflərdən 5 faizi öz vaxtını sərf edib, belə kitablar yazardılar. Ancaq bu yubileyin keçirilməsi haqqında qəbul etdiyimiz qərar və Azərbaycanda bu məsələnin ötən 3 il müddətində geniş təbliğ olunması, bu işə dövlətin böyük əhəmiyyət verməsi, bizim bir çox alimlərimizi, yazıçılarımızı həvəsə gətiribdir. Onların hər biri yeni kitablar yazıbdır. Beləliklə də, "Dədə Qorqud" haqqında bizim həm tarixi kitablarımız, həm də ədəbi-publisist kitablarımız artıbdır. Bu da çox gözəl hadisədir".

Heydər Əliyevin aşağıdakı fikri dəyərli kitabların həmişə çap olunmasını, xalqın arasında yayılmasını şərtləndirir: "İndi hamı bu fikirdədir, kitablar da onu göstərir, Drezden kitabxanasından gələn nüsxə də bunu deyir ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının ən qədim mədəniyyət, ədəbiyyat, mənəviyyat abidəsidir. Ona görə də, demək, bu bizim ana kitabımızdır. Bu kitabın məzmununu, mənasını onun hər bir kəlməsini hər bir Azərbay-

canlı məktəbdən başalayaraq bilməlidir. İnsanlar bütün bunları nə qədər çox bilsələr, millətini, xalqını, vətənini və müstəqil Azərbaycanı da bir o qədər sevəcəklər. Bu, bizim xalqımızın çox əsrlik tarixində yeni bir mərhələdir".

Heydər Əliyevin kitabçılıq işinə dair bu cür qiymətli fikirləri onun çoxsaylı məruzələrində, çıxışlarında mövcuddur. Məsələn, Naxçıvanda görkəmli yazıçı-publisist və dramaturq C.Məmmədquluzadənin ev muzeyinin açılışında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi maraq doğurur. O, nitiqndə deyirdi: "Azərbaycan öz milli ənənələrini, dəyərlərini, dini dəyərlərini qoruyaraq, saxlayaraq, inkişaf etdirərək, eyni zamanda dünyəvi mədəniyyətə doğru gedibdir. Azərbaycan xalqının buna nail olmasında Azərbaycanın böyük simalarının, o cümlədən dahi insan C.Məmmədquluzadənin – Mirzə Cəlilin xüsusi xidməti və rolu olubdur.

Əgər, C.Məmmədquluzadə kimi şəxsiyyət dünyaya gəlməsəydi, öz fəaliyyətini görməsəydi, əgər "Molla Nəsrəddin" jurnalı insanları qaranlıqdan çıxarmağa çalışmasaydı, əgər onun "Ölülər" əsəri insanların gözünü real dünyaya açmasaydı xalqımız bu qədər inkişaf edə bilməzdi. Bu sözlər təkcə C.Məmmədquluzadəyə aid deyil, bizim çox dahilərimizə aiddir. Ancaq biz bu gün məhz Mirzə Cəlilin evinə gəlmişik və burada onun xatirəsini yad edirik. Ona görə mən bu sözləri deyirəm" [6].

Göründüyü kimi, Heydər Əliyev milli və ümumbəşəri dəyərlərin vəhdətinin təmin edilməsini zəruri sayırdı. Azərbaycan gəncləri bu gün bu istiqamətdə çalışmalı, milli və ümumbəşəri mənəvi sərvətlərə yiyələnməlidirlər.

Heydər Əliyevin zəngin elmi irsi inkişaf edən ölməz irsdir, nəsildən-nəsilə ötürüləcəyinə, əbədi yaşayacağına şübhə ola bilməz.

Yadda qalmalıdır ki, bir-birini əvəz edən hər nəsil əvvəlki dəyərli irsi dərindən mənimsəmək, qoruyub saxlamaqla yanaşı, onu zənginləşdirməyə də borcludur. Milli yetkinləşmə yalnız bu yolla mümkün ola bilər. Bu cəhətdən Heydər Əliyev irsi xalqa, xüsusilə də gənclərə əvəzsiz töhfədir.

Bu məqalədə Heydər Əliyevin Azərbaycan kitab nəşri mədəniyyətindəki rolunun, xidmətinin çox cüzi bir hissəsi əks olunmuşdur. Fikrimizcə, H.Əliyev və Azərbaycan kitab nəşri mədəniyyəti ayrıca elmi tədqiqat problemi kimi işlənməlidir və nəticəsi monoqrafiya halında çap edilməlidir. Bu monoqrafiyada toplanılacaq və şərh ediləcək Heydər Əliyevin fikir və mülahizələri Azərbaycan kitabının gələcək inkişaf istiqamətlərinin, perspektivinin bünövrəsi ola bilər.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasında Dövlət Dili haqqında Azərbaycan Respublikasının Qanunu (20 sentyabr, 2002-ci il) // "Azərbaycan" qəz., 2003. -4 yanvar.
2.Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Milli kitabxanasında miniatür kitabın təqdimat sərgisində çıxışı // "Azərbaycan" qəz., 1995. -6 iyun.
3."Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasında Azərbaycan Respublikasının Prezidenti, Komissiyanın sədri Heydər Əliyevin yekun nitqi // "Xalq" qəz., 2000. -12 mart.
4.Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin tabeçiliyində olan bir sıra müəssisələrin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (29 mart, 2001-ci il) // "Respublika" qəz., 2001. -30 mart.

5.Allahverdiyev B.V. Kitab nəşri: problemlər, mülahizələr, təkliflər // "Dil və ədəbiyyat" beynəlxalq-elmi-nəzəri jurnal. –Bakı, 2006. –№3 (51). –S.180-181.
6.Naxçıvanda görkəmli yazıçı-publisist və dramaturq Cəlil Məmmədquluzadənin ev muzeyinin açılışında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi // "Ədəbiyyat qəzeti"., 1999. -22 oktyabr.
7.Allahverdiyev B.V. Heydər Əliyev və Azərbaycan kitab nəşri mədəniyyəti (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr edilir) // "Kitabşünaslıq və nəşriyyat işi" elmi-nəzəri və təcrübi jurnal, 2008. -№2. –S.3-15.

**БАЙРАМ АЛЛАХВЕРДИЕВ**
***профессор кафедры «Книговедение и издательское дело» БГУ, доктор исторических наук,***

## ГЕЙДАР АЛИЕВ И ВОПРОСЫ КНИГОИЗДАНИЕ В АЗЕРБАЙДЖАНЕ

Гейдар Алиев всегда обращал особое внимание на развитие культурной сферы. Книгоиздание, книжное дело, деятельность издательств в челом всегда имел особое место в общественно-политический, культурной деятельности выдающийся личности Гейдара Алиева. Он в своих выступлениях, докладах отделял особое место книгоиздание, его пропаганде и распространение. Гейдар Алиев время от времени высказывал очень ценные мысли о развитии книгоиздание во время солидарности в Азербайджане и определял перспективы развитие книжного дело. В статье говорится о деятельности в сферах книгоиздание, пропаганде и распространение, направление развитие книги Гейдара Алиева.

**BAYRAM ALLAHVERDIYEV**
***Professor of the chair of Bibliology and publishing work BSU, doctor of history***

## HEYDAR ALİYEV AND THE İSSUES OF BOOK PUBLİSHİNG İN AZERBAİJAN

Heydar Aliyev has always paid attention to development of culture and art. Book publishing and the activity of publishing houses take a special place in the social-political and cultural activity of Heydar Aliyev. He gave broad place to book publishing, promotion and distribution in his speech and lectures. Heydar Aliyev has made public his valuable thoughts about book publishing in Azerbaijan in the period of independence and determined the development perspective of book publishing.

The prospective development directions of book publishing, promotion and distribution determined by Heydar Aliyev were covered in the article

*Rəyçilər:f.ü.f.d.Ş.Quliyeva, t.e.d.R.C.Süleymanov*

*BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabşünaslıq və nəşriyyat işi kafedrasının 3 aprel 2013-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №6).*